# Milli azadlıqdan şirin nemət yoxdur



***1990**-cı ilin əvvəllərində ağır vəziyyətə düçar olmuş Azərbaycan xalqının yanında olmağa qərar verən ulu öndər Moskvadan Vətənə qayıtdı. Ovaxtkı rəhbərlik onun paytaxta yolunu kəsdiyi üçün iyulun 22-də doğma yurdu Naxçıvana getdi. Naxçıvan əhalisi Heydər Əliyevi böyük izdihamla qarşıladı. Xalqın mənavi sıxıntı məngənəsində boğulduğu, iqtisadi, siyasi, sosial, hərbi və mənavi böhran keçirdiyi bir dövrdə onun Naxçıvana qayıtması respublika əhalisində böyük ruh yüksəkliyi və gələcəyə inam yaratdı. Görkəmli dövlət xadiminin 1991-ci il sentyabrın 3-də minlərlə insanın təkidi ilə Ali Məclisin Sədri seçilməsi də Azərbaycanın müstəqillik yolunun əsasını qoymuşdur.*

## *1991-ci il martın 14-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi Sovet İttifaqının saxlanılması barədə referendumda muxtar respublika əhalisinin iştirak etməməsi haqqında tarixi qərar qəbul edib*

**"Mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır".**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

"Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim… Xalqın bu əhvali-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm", - deyən dahi şəxsiyyət Naxçıvan Muxtar Respublikasını erməni təcavüzündən xilas etmiş, blokada şəraitində gələcək inkişafın böyük təməllərini atmışdır. Görkəmli dövlət xadiminin qədim diyardan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilməsi böyük təcrübəyə malik olan qüdrətli siyasətçinin ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməsinə meydan açmışdır. Ümummilli lider Heydər Əliyevin xalq deputatı kimi fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin ən parlaq səhifələrini təşkil edir. Böyük şəxsiyyətin həyat və fəaliyyətinin Azərbaycan tarixinin ayrıca bir mərhələsini təşkil edən Naxçıvan dövrü isə daha diqqətçəkəndir. Çünki bu, ümumilikdə Azərbaycan xalqının taleyinin dəyişməsinə xidmət edən bir mərhələ olmuşdur. Belə məqamlardan biri də 1991-ci ildə - SSRİ-nin süqutu ərəfəsində baş verən hadisələrdir.

1991-ci ilin martında keçmiş SSRİ-nin bütün respublikalarında Sovet İttifaqının saxlanılması ilə bağlı qondarma referendum keçirilib, o cümlədən də Azərbaycanda. Məqsəd bu idi: SSRİ qalsın və yaxud qalmasın? Bu referendumun bir variantı bu idi ki, sovet hökuməti qalsın, Azərbaycan da onun tərkibində yaşasın. İkinci variant o idi ki, sovet hökuməti dağılsın, Azərbaycan müstəqil olsun. Naxçıvan MR əhalisi referendumda iştirak etmədi. Bu addım ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmiş, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstün olmuşdur. Naxçıvan bu ağır sınaqlardan çıxaraq inkişaf yoluna qədəm qoymuşdur.

Heydər Əliyevin liderliyi ilə Naxçıvan MR Ali Məclisi Azərbaycan xalqının mənafeyinə aid olan bütün məsələlərə prinsipial yanaşma nümayiş etdirir, öz mövqeyini ortaya qoyurdu. SSRİ-nin dağılmasının qarşısını almaq, respublikaları müstəqillik yolundan döndərmək üçün Mərkəzi hökumət yeni ittifaq müqaviləsi ideyasını ortaya atmış, SSRİ-nin saxlanılması haqqında referendum keçirilməsi təklifi ilə çıxış etmişdi. 1991-ci il yanvarın 14-də Naxçıvan MR Ali Məclisinin sessiyasında yeni ittifaq müqaviləsinin layihəsinin müzakirəsində çıxış edən Heydər Əliyev respublika rəhbərliyinin bu mövqeyini kəskin tənqid edərək bildirdi ki, ittifaq müqaviləsinin layihəsi ümumittifaq siyasi rəhbərliyi tərəfindən və xüsusən Qorbaçov tərəfindən bütün sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür: "Bir tərəfdən Azərbaycanın bəzi rəsmi dairələri öz hərəkətləri ilə göstərirlər ki, biz milli dirçəliş yoluna düşürük. Bu yolla getmək istəyirik. Belə olan halda necə ola bilər ki, əgər biz milli dirçəlişi təmin etmək istəyiriksə, özümüzü gətirib hansısa bir ittifaqda bağlayaq? Burada məntiq yoxdur… Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy göstərmək xalqımız qarşısında cinayət etmək deməkdir… Son üç ildə başımıza gələnlər tam açıq göstərdi ki, bizim ümumittifaqdan nicatımız yoxdur".

Belə bir şəraitdə Azərbaycanın mühafizəkar rəhbərliyi respublika əhalisinin referendumda iştirakı barədə qərar qəbul etdi, baxmayaraq ki, öz suverenliyi uğrunda mübarizə aparan bir çox respublikalar, hətta Ermənistan referendumu boykot etmişdilər. Azərbaycanın demokratik qüvvələri də bu saxta referendumun əleyhinə idi. Azərbaycan rəhbərliyinin təzyiqinə baxmayaraq, Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi martın 14-də muxtar respublika əhalisinin referendumda iştirak etməməsi haqqında tarixi qərar qəbul etdi. Müzakirədə Heydər Əliyev geniş nitq söylədi. SSRİ-də, eləcə də Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyəti təhlil edərək Sovet imperiyasının süquta doğru getdiyini tutarlı arqumentlərlə əsaslandıraraq Azərbaycanın gələcək müstəqilliyi üçün lazımi tədbirlərin görülməsinin vacibliyini vurğuladı. Ulu öndər referendum oyununun bütün mahiyyətlərini açıb göstərdi.

Həmin çıxışda xatırladılırdı ki, bəziləri respublikamızın müstəqil, İttifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışırlar. İttifaqda olan respublikaların bir-biri ilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduğuna görə onların İttifaqdan ayrı yaşaması mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır: "Bu təbliğatlar əsassızdır. Əvvəla, Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir. İkincisi, dünyanın hər bir dövləti digər dövlətlərlə istədikləri sahələrdə qarşılıqlı iqtisadi, ticarət, texniki əlaqələr yaradır, ümumdünya inteqrasiya prosesində iştirak edir və bunların heç biri bu dövlətləri müstəqillikdən məhrum etmir. Ona görə də İttifaqda olan respublikaların iqtisadi əlaqələri onların müstəqilliyə nail olmasına mane ola bilməz. Fikrimcə əgər Azərbaycan tam müstəqil dövlət olarsa, bu, müstəqil Azərbaycanın gələcək inkişafı üçün daha səmərəli olar".

Heydər Əliyev SSRİ-nin qorunub saxlanılması üçün canfəşanlıq edənlərə xatırladırdı ki, 1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür: "Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir". Ulu öndər təkcə parlament rəhbərliyindən deyil, eləcə də bütün deputatlardan tələb edirdi ki, xalqa hər şey düzgün çatdırılsın. Sosial ədalət bərqərar olunsun: "Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq".

Heydər Əliyevin və müstəqillik ideyası ətrafında səfərbər olmuş milli qüvvələrin ciddi etirazlarına baxmayaraq, Azərbaycan parlamenti SSRİ-nin saxlanılması barədə referendumda iştirak haqqında qərar qəbul etdi. Bu, ilk baxışdan sadəcə imperiyanın çöküşünün qarşısını almaq, yaxud başqa bir ittifaqda birləşmək cəhdinə dəstək kimi görünürdü. Amma əslində milli azadlığı, müstəqilliyi güzəştə getmək, milli iradəni, xalqın siyasi taleyini - dövlətin müqəddəratını konyuktur maraqlara qurban vermək idi. O zaman referendumda yalnız Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası iştirak etmədi. "Naxçıvan parlamenti özünün sessiyalarında Azərbaycanın müstəqilliyi barəsində dəfələrlə məsələ qaldırıb. Naxçıvan 17 martda - yeni ittifaq yaranması haqqında referendumda iştirak etməyib və yeni ittifaqın yaranmasının əleyhinədir, Azərbaycan Respublikasının yeni bir ittifaqa girməsinin tamamilə əleyhinədir", - deyə ümummilli lider qeyd etmişdi. Həmin vaxt Ali Sovetin sessiyasında respublikanın keçmiş rəhbərliyinin göstərişi ilə Heydər Əliyevin əleyhinə çıxışlar oldu. Hətta ulu öndərin bu çıxışına görə qərar qəbul olundu ki, komissiya yaradılsın və Onun Azərbaycanda rəhbər olduğu zaman bütün fəaliyyəti yoxlanılsın. Ancaq müdrik dövlət xadimi, dahi şəxsiyyət dövlətçilik maraqlarını əsas götürərək, xalqdan güc alaraq öz sözünü qətiyyətlə və birmənalı şəkildə demişdi: "Sovetlər İttifaqı dağılır və dağılmalıdır. Azərbaycan heç bir yeni İttifaqa girməməlidir və Azərbaycan Sovetlər İttifaqının saxlanması ilə əlaqədar olan referendumda iştirak etməməlidir".

Bu, milli iradənin ifadəsi olmaqla yanaşı, "Milli azadlıqdan şirin nemət yoxdur", - deyən Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında qətiyyətli Lider kimi tarixi-siyasi məsuliyyətinin göstəricisi idi. Heydər Əliyevin 34 il əvvəl - 1991-ci ilin mart ayında dediyi sözlər bir daha öz təsdiqini tapır: "Geriyə yol yoxdur. Heç kəs yenidən Sovetlər İttifaqını bərpa edə bilməz". Bəli, tarix dünənin siyasəti, siyasət isə bu günün tarixi olsa da, zamanı geri qaytarmaq mümkün deyil. Dövlətçilik və müstəqillik yolu daim irəliyə baxmağı tələb edir. Azərbaycan bu gün tarixin ən qüdrətli dövrünü yaşayır.

**Mustafa KAMAL,**
**"Respublika".**